Horizon Multidisciplinary Scientific Journal
Journal homepage: https://horizonmsj.com/
ISSN 3135-4890
E-ISSN 3135-4904



Original Research Paper

FOLKLOR ƏSASLI ANA DİLİ TƏLİMİ: İBTİDAİ MƏKTƏBDƏ DİL VƏ MƏDƏNİ KOMPETENSİYANIN İNKİŞAFI ÜÇÜN METODİK MODEL

Sahilə Abbasova

https://orcid.org/0000-0002-3999-9670

Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan

Article history
Received: 01.11.2026
Revised: 10.11.2026
Accepted: 23.11.2026

*Corresponding Author: Sahilə Abbasova, Naxçıvan Dövlət Universiteti, Naxçıvan, Azərbaycan
Email: sahileli.uni@gmail.com

Xülasə
Məqalədə Azərbaycan folkloru nümunələrinin ibtidai siniflərdə ana dili təliminə inteqrasiyası üçün metodik model təklif edilir. Tədqiqatın məqsədi folklor mətnlərinin janr xüsusiyyətlərini konkret dil fəaliyyətləri ilə əlaqələndirmək və şagirdin mətnin mədəni məzmununu necə şərh etdiyini qiymətləndirmək üçün meyarlar müəyyənləşdirməkdir. Nəzəri-analitik yanaşma çərçivəsində Azərbaycan dili üzrə təhsil proqramı, üçüncü sinif üçün metodik vəsait, yerli folklor topluları və pedaqoji ədəbiyyat nəzərdən keçirilmişdir. Mənbələr mətnin yaşa uyğunluğu, dil tapşırığına çevrilmə imkanı və mədəni məzmunun şərhi baxımından müqayisə edilmişdir. Təklif olunan model məzmun seçimi, dil fəaliyyəti, mədəni mənanın şərhi və yaradıcı tətbiq mərhələlərindən ibarətdir. Nağıl, atalar sözü və tapmaca üzrə tapşırıq nümunələri bu mərhələlərin dərsdə necə əlaqələndirilə biləcəyini göstərir. Oxuyub-anlama, şifahi ifadə, sözün kontekstdə istifadəsi, mədəni məzmunun izahı və yaradıcı yazı üçün müşahidə edilə bilən göstəricilər əsasında qiymətləndirmə rubrikası təqdim olunur. Model ibtidai sinif müəllimlərinə folklor nümunəsini seçmək, onun əsasında bir-birini tamamlayan tapşırıqlar hazırlamaq və şagird cavablarını eyni meyarlarla qiymətləndirmək üçün metodik çərçivə verir. Modelin şagird nailiyyətlərinə təsiri gələcək sinif tədqiqatlarında yoxlanıla bilər.

Açar sözlər: *folklor, ana dili təlimi, ibtidai təhsil, dil kompetensiyası, mədəni kompetensiya, şifahi xalq yaradıcılığı, metodik model*

GİRİŞ

İbtidai təhsildə ana dili təliminin əsas məqsədi yalnız şagirdə düzgün oxu, yazı və qrammatik qaydaları mənimsətməklə məhdudlaşmır. Dil təlimi şagirdin fikrini ifadə etmək, dinlədiyini və oxuduğunu anlamaq, müxtəlif situasiyalarda ünsiyyət qurmaq, mətn yaratmaq və dil vasitəsilə sosial-mədəni təcrübəni dərk etmək bacarıqlarını da əhatə edir. Bu baxımdan dil yalnız kommunikasiya vasitəsi deyil, həm də mədəni yaddaşın və kollektiv təcrübənin daşıyıcısı kimi çıxış edir (Halliday, 1978).

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license.

DOI: https://doi.org/10.5281/zenodo.24493162

Ana dilinin tədrisində milli-mədəni məzmunun istifadəsi şagirdin öyrəndiyi dil vahidlərini real həyat və mədəni təcrübə ilə əlaqələndirməsinə imkan yaradır. Məhz bu kontekstdə folklor materialları xüsusi əhəmiyyət daşıyır. Nağıllar, əfsanələr, atalar sözləri, məsəllər, tapmacalar, bayatılar, laylalar və digər folklor nümunələri xalqın dünyagörüşünü, əxlaqi dəyərlərini, həyat təcrübəsini və dil xüsusiyyətlərini özündə birləşdirir. (Abbasova, S. 2016, s. 164–166; Abbasova, S. 2020, s. 116–119).

Folklorun təhsildə istifadəsi yalnız milli-mədəni məzmunun qorunması ilə bağlı məsələ deyil. Müasir pedaqoji yanaşmalarda şagirdin əvvəlki mədəni və sosial təcrübəsinin təlim prosesinə daxil edilməsi öyrənmənin mənalı olmasının mühüm şərtlərindən biri hesab edilir (Bruner, 1996; Gay, 2018; Vygotsky, 1978).

Mədəni cəhətdən mənalı materiallar şagirdə tanış məzmun üzərində yeni dil əməliyyatları aparmağa imkan verir. Məsələn, şagird tanıdığı bir nağılın məzmununu danışır, qəhrəmanları müqayisə edir, hadisələrin ardıcıllığını müəyyənləşdirir, mətnə başqa sonluq verir və ya nağılın ideyasını öz sözləri ilə ifadə edir (Abbasova, 2025, s. 402–403).

Tədqiqatın problemi folklor nümunələrinin yalnız oxu materialı kimi təqdim edilməsi ilə onların dil və mədəni kompetensiyanın inkişafına yönəlmiş sistemli metodik mexanizmə çevrilməsi arasındakı fərqin müəyyənləşdirilməsidir.

Tədqiqatın məqsədi ibtidai məktəbdə folklor əsaslı ana dili təliminin nəzəri-metodik imkanlarını müəyyənləşdirmək və dil və mədəni kompetensiyanın inkişafına yönəlmiş metodik model təqdim etməkdir.

Bu məqsədlə folklorun didaktik imkanlarının müəyyənləşdirilməsi, janrların dil bacarıqları ilə əlaqələndirilməsi, tapşırıq sisteminin əsas xüsusiyyətlərinin araşdırılması və metodik modelin hazırlanması nəzərdə tutulmuşdur.

Azərbaycan dili üzrə yenilənmiş təhsil proqramının təsdiqi ibtidai pillə üzrə məzmunun həmin fənnin təlim məqsədləri ilə əlaqələndirilməsi üçün normativ əsas yaradır (Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, 2025). III sinif üzrə metodik vəsait isə dərsin planlaşdırılmasında yerli metodik istinad rolunu oynayır. Məqalənin tədqiqat sualı belədir: bir folklor nümunəsi əsasında dil bacarığını və mədəni mənanı şərhetmə bacarığını eyni dərsdə hansı fəaliyyətlərlə əlaqələndirmək mümkündür? (Abbasova, 2022, s. 84–88).

Metodologiya

Tədqiqat nəzəri-analitik və metodik xarakter daşıyır. Mənbələr üç istiqamət üzrə nəzərdən keçirilmişdir: yerli təhsil sənədləri və metodik vəsait, Azərbaycan folklor topluları, dil və mədəniyyətin təlimdə əlaqəsini izah edən nəzəri ədəbiyyat. Folklor nümunəsinin təlim üçün

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24493162

seçilməsində üç meyar tətbiq edilmişdir: mətnin yaş və dil səviyyəsinə uyğunluğu, dil fəaliyyətinə çevrilə bilən janr xüsusiyyəti və mədəni mənanın mətn üzrə əsaslandırıla bilməsi.

Müqayisə janrların dərs üçün açdığı imkanlar üzrə aparılmışdır. Nağılda hadisələrin ardıcıllığı, tapmacada əlamət və nəticə əlaqəsi, atalar sözündə isə fikrin yığcam və ümumiləşdirilmiş ifadəsi əsas götürülmüşdür. Bu xüsusiyyətlər uyğun şagird fəaliyyəti və müşahidə edilə bilən cavab göstəricisi ilə əlaqələndirilmişdir. Sinif müşahidəsi və eksperiment aparılmadığı üçün təqdim olunan tapşırıq və qiymətləndirmə göstəriciləri təklif edilən modelin komponentləridir.

Nəticələr və müzakirə

Folklorun dil və mədəni kompetensiyanın inkişafında yeri

Dil və mədəniyyət bir-birindən ayrılmaz sistemlərdir. Dil sosial məna yaratma sistemidir və onun mənimsənilməsi yalnız formal dil vahidlərinin öyrənilməsi ilə məhdudlaşmır (Halliday, 1978). Şagird dili sosial və mədəni kontekst daxilində mənimsədikdə dil vahidinin funksional mənasını daha yaxşı dərk edir.

Vıgotskinin (1978) sosial-mədəni nəzəriyyəsinə görə, öyrənmə sosial qarşılıqlı əlaqə və mədəni vasitələrin köməyi ilə həyata keçirilir. Folklor da belə mədəni vasitələrdən biri kimi nəzərdən keçirilə bilər. Şagird folklor mətnini oxuyarkən yalnız sözləri və cümlələri mənimsəmir; həmin mətnin ifadə etdiyi sosial münasibətləri, dəyərləri və mədəni mənaları da dərk edir.

Bruner (1996) təhsildə mədəni kontekstin əhəmiyyətini vurğulayaraq öyrənmənin insanın mənalandırma fəaliyyəti ilə əlaqəli olduğunu göstərir. Gay (2018) isə şagirdin mədəni təcrübəsinin təlim prosesinin resursuna çevrilməsini vacib prinsip kimi təqdim edir. Bu baxımdan milli folklor nümunələri Azərbaycan ibtidai məktəblərində ana dili təliminin məzmununu şagirdin həyat təcrübəsi ilə əlaqələndirə bilər.

Mədəni kompetensiya insanın öz mədəniyyətini tanıması, onun dəyərlərini anlaması və müxtəlif mədəni məzmunları müqayisəli şəkildə dərk etməsi ilə əlaqələndirilə bilər. Byram (1997) mədəniyyətlərarası kompetensiyanın yalnız faktiki biliklərdən ibarət olmadığını, münasibət, şərhetmə, qarşılaşdırma və ünsiyyət bacarıqlarını da əhatə etdiyini göstərir.

İbtidai sinif mərhələsində şagird folklor nümunəsinin hansı milli-mədəni xüsusiyyəti əks etdirdiyini müəyyən edə, qəhrəmanın davranışını qiymətləndirə, “yaxşılıq”, “ədalət”, “hörmət” və “qonaqpərvərlik” kimi dəyərləri izah edə, Azərbaycan folklorundakı motivləri başqa xalqların oxşar nümunələri ilə müqayisə edə bilər.

UNESCO-nun 2003-cü il Konvensiyasında şifahi ənənələr və ifadələr qeyri-maddi mədəni irsin mühüm sahələrindən biri kimi nəzərdən keçirilir. Bu yanaşma folklorun təhsil mühitində yaşadılmasının əhəmiyyətini artırır (UNESCO, 2003).

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24493162

Azərbaycan folklor nümunələrinin seçilməsi üçün yerli toplular janr və bölgə baxımından müxtəlif material təqdim edir. Naxçıvan folklorunun 1994-cü il antologiyası ilə 2010-cu ildə nəşr olunmuş bölgə toplusu Naxçıvanda qeydə alınmış materialı dərsə gətirmək üçün istinad mənbələridir (Cəfərli M., Babayev R., 2010; Fərzəliyev T., Qasımlı M, 1994). Qarabağ folkloru toplusu müqayisə üçün ikinci bölgəyə aid nümunələrin seçilməsinə imkan verir (Rüstəmzadə İ., Fərhadov Z., 2012). Bu müqayisədə şagird iki mətnin söz seçimi, obrazı və ya hadisə quruluşu üzrə konkret oxşarlığı və fərqi göstərir.

Lüğət ehtiyatının zənginləşdirilməsi

Nağıl və əfsanələrdə müxtəlif hərəkət, emosional vəziyyət, xarakter, məkan və zaman bildirən sözlərdən geniş istifadə olunur. Şagird həmin sözləri təcrid olunmuş formada deyil, konkret mətn daxilində öyrənir. “Qəhrəman”, “cəsarətli”, “mərhəmətli”, “ədalətli”, “səfərə çıxmaq”, “sınaqdan keçmək” kimi ifadələr nağıl kontekstində təqdim edildikdə onların mənası daha asan mənimsənilə bilər.

Oxuyub-anlama bacarığı

Folklor mətnlərinin hadisə əsaslı quruluşu şagirdə mətnin strukturunu müəyyənləşdirməyə imkan verir. Şagird hadisənin harada baş verdiyini, əsas qəhrəmanın kim olduğunu, problemin nədən ibarət olduğunu, hadisələrin səbəbini və mətnin əsas ideyasını müəyyənləşdirir. Belə suallar mətnin yalnız yadda saxlanmasını deyil, onun struktur və məna baxımından təhlilini tələb edir. (Abbasova, 2020, s. 116–119).

Şifahi nitqin inkişafı

Folklor mətnləri danışma fəaliyyətinə çevrilə bilər. Şagird mətni nəql edir, obrazların nitqini canlandırır, dialoq qurur, hadisəni öz sözləri ilə danışır, qəhrəmanın davranışını qiymətləndirir və mətnə yeni sonluq yaradır. Bu fəaliyyətlər şagirdin passiv oxucudan aktiv dil istifadəçisinə çevrilməsinə imkan verir.

Yazılı nitqin inkişafı

Folklor materialları əsasında “Nağılı başqa sonluqla tamamla”, “Qəhrəmana məktub yaz”, “Hadisəni öz həyatındakı oxşar vəziyyətlə müqayisə et” və “Mətn əsasında beş cümlə qur” kimi tapşırıqlar hazırlamaq mümkündür. Bu tapşırıqlar şagirdin sərbəst yazılı ifadə bacarığını inkişaf etdirir.

Folklor janrları və dil fəaliyyəti

Cədvəl 1-də janrın xüsusiyyəti ilə uyğun dil fəaliyyəti əlaqələndirilir. Nağıl materialı seçilərkən “Azərbaycan nağılları” toplusunun müvafiq cildindən, təsviri əlamətlər əsasında izah tapşırığı hazırlanarkən isə “Tapmacalar” toplusundan istifadə oluna bilər (Azərbaycan nağılları, 2005; Tapmacalar, 2004).

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

Horizon Multidisciplinary Scientific Journal 2026, Volume 1 (8): page 172-181
DOI: https://doi.org/10.5281/zenodo.24493162

Cədvəl 1. Folklor janrları üzrə dil fəaliyyətləri

Folklor janrı	**Əsas dil fəaliyyəti**	**İnkişaf etdirilən bacarıq**
Nağıl	Oxu, nəqletmə, dialoq	Oxuyub-anlama, şifahi nitq
Atalar sözü	İzah, müqayisə	Məna anlama, ümumiləşdirmə
Məsəl	Təhlil, müzakirə	Tənqidi düşünmə, nitq
Tapmaca	Sual-cavab, fərziyyə	Məntiqi düşünmə, lüğət
Bayatı	Oxu, emosional təhlil	Bədii qavrayış, ifadəlilik
Layla	Dinləmə, müqayisə	Dinləmə, emosional qavrayış
Əfsanə	Nəqletmə, təhlil	Mətn qurma, mədəni şüur
Dastan	Obraz təhlili	Şifahi və yazılı nitq

Folklor janrlarının metodik potensialı eyni deyil. Müəllim mətnin janr xüsusiyyətini nəzərə alaraq uyğun dil fəaliyyətini seçməlidir. Tapmacalar fərziyyə irəli sürməyə, atalar sözləri isə məna, sinonimlik, antonimlik və müqayisə tapşırıqlarına əlverişlidir.

Folklor əsaslı ana dili təliminin metodik modeli

Tədqiqatın əsas nəticəsi kimi folklor materiallarının ana dili təliminə inteqrasiyası üçün dörd mərhələli metodik model təklif olunur:

I mərhələ – MƏZMUN: Şagirdin yaşına, dil səviyyəsinə və təlim məqsədinə uyğun folklor nümunəsi seçilir.

II mərhələ – DİL FƏALİYYƏTİ: Mətn əsasında oxu, dinləmə, danışma və yazı tapşırıqları qurulur.

III mərhələ – MƏDƏNİ MƏNA: Şagird mətnin ifadə etdiyi dəyərləri, davranış normalarını və milli-mədəni xüsusiyyətləri müəyyənləşdirir.

IV mərhələ – YARADICI TƏTBİQ: Şagird öyrəndiyini yeni situasiyada tətbiq edir.

Modelin dərsə tətbiqi üçün müəllim seçilmiş nağıldan bir epizod müəyyənləşdirir. Mətnin mənasını anlamağa mane olan sözlər əvvəlcə kontekst üzrə izah edilir. Şagirdlər hadisələri ardıcıllığa salır və bir obrazın davranışını mətnin konkret hissəsinə əsaslanaraq şərh edirlər. Müzakirədən sonra həmin davranışla əlaqəli atalar sözünü seçir və əlaqəni bir cümlə ilə əsaslandırırlar. Son mərhələdə şagird hadisə üçün alternativ sonluq yazır və öz variantında hansı davranışın dəyişdiyini bildirir.

Model əsasında tapşırıq sistemi

“Tap və izah et”. Şagird mətndə yeni sözləri tapır və onların mənasını kontekstə əsasən izah edir. Məqsəd lüğət ehtiyatının genişləndirilməsidir.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24493162

“Hadisələri düz”. Nağılın hadisələri qarışıq şəkildə təqdim edilir. Şagird onları düzgün ardıcıllıqla düzür. Məqsəd mətnin strukturunun dərk edilməsidir.

“Qəhrəmanın yerində olsaydın...”. Şagird qəhrəmanın qarşılaşdığı problemə öz həll variantını təqdim edir. Məqsəd şifahi nitq və tənqidi düşünmənin inkişafıdır.

“Atalar sözünü mətnlə əlaqələndir”. Müəllim bir atalar sözü təqdim edir və şagirddən onun hansı hadisə ilə əlaqəli olduğunu izah etməsini istəyir.

“Nağıla yeni sonluq yaz”. Şagird mövcud süjet əsasında alternativ sonluq yaradır. Məqsəd yaradıcı yazının inkişafıdır.

“Mədəniyyət körpüsü”. Şagird Azərbaycan folklor nümunəsindəki müəyyən xüsusiyyəti başqa mədəniyyətə aid oxşar nümunə ilə müqayisə edir.

Tapmaca ilə işdə cavabın tapılması fəaliyyətin başlanğıcıdır. Şagird cavabı əsaslandırmaq üçün mətndəki iki əlaməti seçir və hər birinin cavabla əlaqəsini izah edir. Ardınca həmin obyekt üçün başqa əlamət təklif edir və sinif yoldaşı bu əlamət üzrə yeni tapmaca qurur. Müəllim bu fəaliyyət zamanı şagirdin təsviri sözlərdən istifadəsini və fərziyyəsini əsaslandırmaq bacarığını müşahidə edə bilər (Tapmacalar, 2004).

Qiymətləndirmə və müəllimin rolu

Folklor əsaslı təlimdə müəllim şagirdin yaş və inkişaf səviyyəsinə uyğun nümunə seçməli, mətnin dil çətinliyini nəzərə almalı, milli-mədəni məzmunu düzgün izah etməli, folklor mətnini dil tapşırığı ilə əlaqələndirməli və şagirdin yaradıcı reaksiyasına imkan verməlidir. Folklor nümunəsi əzbərlətmə obyektinə çevrilməməlidir.

Mühüm metodik prinsip “mətn – fəaliyyət – nəticə” prinsipidir. “Nağılı oxu və danış” tapşırığı əvəzinə “Oxu – sözləri seç – hadisələri ardıcıllığa sal – qəhrəmanı qiymətləndir – dialoq qur – yeni sonluq yaz” ardıcıllığı daha geniş dil fəaliyyətinə imkan verir.

Cədvəl 2-də hər meyar üzrə müşahidə edilə bilən şagird cavabları təsvir olunur. Müəllim konkret dərsdə yalnız qarşıya qoyulmuş məqsədlərlə əlaqəli meyarları seçə bilər. Məsələn, nəqletmə və obrazın davranışını əsaslandırma tapşırığında mətnin anlaşılması, şifahi ifadə və mədəni məzmunun şərhi nəzərə alınır. (Abbasova, 2022, s. 84–88).

Cədvəl 2. Dil və mədəni kompetensiyanın qiymətləndirilməsi üçün rubrika

Meyar	**1 bal**	**2 bal**	**3 bal**
Mətni anlama	Ayrı-ayrı hadisələri sadalayır.	Əsas hadisələri seçir, ardıcıllığı qismən qoruyur	Əsas hadisələri ardıcıllıqla verir və əlaqəni izah edir

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24493162

Meyar	**1 bal**	**2 bal**	**3 bal**
Şifahi ifadə	Fikrini dəstək ilə bildirir	Fikrini bildirir və qismən əsaslandırır	Fikrini aydın bildirir və mətnlə əsaslandırır
Lüğətdən istifadə	Yeni sözü tanıyır.	Yeni sözü uyğun kontekstdə izah edir	Yeni sözü öz cümləsində düzgün işlədir
Mədəni məzmunu şərhetmə	Mətndəki davranışı göstərir.	Davranışla bağlı bir dəyəri müəyyən edir	Dəyəri müəyyən edir və mətnə əsaslanaraq şərh edir
Yaradıcı yazı	Süjeti əsasən təkrar edir	Süjetə uyğun bir dəyişiklik təklif edir	Ardıcıl alternativ sonluq qurur və seçimini izah edir

Rubrikanın tətbiqi zamanı şagirdin cavabı konkret iş nümunəsi əsasında qiymətləndirilir. Müəllim, məsələn, alternativ sonluqda yeni hadisənin əvvəlki süjetlə əlaqəsini ayrıca şərh edə bilər. Yalnız qrammatik düzgünlüyə verilən rəy mədəni məzmunun necə başa düşüldüyünü göstərmədiyi üçün dil və məzmun göstəriciləri ayrı meyarlarla izlənir.

Müzakirə və tətbiq məhdudiyyətləri

Aparılmış nəzəri və metodik təhlil göstərir ki, folklor nümunələrinin ana dili təliminə daxil edilməsi üç əsas istiqamətdə imkan yaradır. Birinci istiqamət dil inkişafıdır: folklor mətnləri kontekst daxilində yeni söz və ifadələrin öyrənilməsi, cümlə quruluşlarının müşahidəsi və müxtəlif nitq fəaliyyətlərinin həyata keçirilməsi üçün material verir.

İkinci istiqamət kommunikativ inkişafdır. Nağılın danışılması, dialoqların canlandırılması, obrazların müqayisəsi, müzakirə və yaradıcı yazı kimi fəaliyyətlər şagirdin dili real kommunikativ məqsədlərlə istifadə etməsinə şərait yaradır.

Üçüncü istiqamət mədəni inkişafdır. Şagird folklor vasitəsilə milli dəyərlər, sosial münasibətlər, davranış modelləri və xalqın dünyagörüşü haqqında bilik əldə edir. Bu istiqamətlərin qarşılıqlı əlaqədə təşkili metodik baxımdan daha məqsədəuyğundur. (Abbasova, 2016, s. 164–166).

Məsələn, “qonaqpərvərlik” mövzusunda folklor nümunəsi seçildikdə şagird əvvəlcə mətndəki söz və ifadələri öyrənə, sonra hadisəni danışa, qəhrəmanların davranışlarını müzakirə edə və sonda “Mənim ailəmdə qonaq gələndə...” mövzusunda qısa mətn yaza bilər. Beləliklə, bir folklor nümunəsi oxu, söz ehtiyatı, danışma, müzakirə, mədəni dəyər və yazı fəaliyyətlərini birləşdirir.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24493162

Təklif olunan model ibtidai siniflərdə Azərbaycan dili, oxu, həyat bilgisi, sinifdənxaric oxu, inteqrativ dərslər, layihə fəaliyyəti və yaradıcı yazı məşğələlərində tətbiq edilə bilər. Model əsasında müəllimlər üçün folklor əsaslı tapşırıq bankı, iş vərəqləri, rubrikalar və qiymətləndirmə meyarları hazırlamaq mümkündür.

Təklif edilən modeldə folklor nümunəsinin öyrənilməsi ilə onun əsasında şagirdin gördüyü iş bir-birinə bağlanır. Modelin metodik töhfəsi mətn seçimi, şagird fəaliyyəti və qiymətləndirmə göstəricisinin eyni dərs məqsədinə uyğunlaşdırılmasıdır. Yerli folklor mətnlərində dialekt sözləri və müasir şagird üçün tanış olmayan anlayışlar ola bilər. Müəllim həmin sözləri əvvəlcə kontekstlə, zərurət yarandıqda qısa lüğət dəstəyi ilə izah edə bilər. Eyni janra aid iki nümunə belə leksik çətinlik və hazırlanma vaxtı baxımından fərqlənə bilər.

Bu məqalədə modelin müxtəlif siniflərdə tətbiqindən əldə edilmiş müşahidə və ölçmə məlumatları yoxdur. Buna görə rubrika üzrə göstəricilərin sinif səviyyəsinə uyğunluğu və təlim nəticələrindəki dəyişiklik ayrıca sınaq tələb edir. Gələcək tədqiqatda eyni meyarlarla ilkin və yekun tapşırıqlar qiymətləndirilə, şifahi və yazılı cavabların inkişafı ayrıca izlənə bilər.

Nəticə

Folklor əsaslı ana dili təlimi ibtidai məktəbdə dil öyrənməsini milli-mədəni məzmunla birləşdirən perspektivli metodik istiqamətdir. Folklor nümunələrinin didaktik potensialı onların yalnız xalq yaradıcılığının nümunəsi olmasında deyil, eyni zamanda zəngin dil, kommunikativ və mədəni material təqdim etməsindədir.

Tədqiqatın nəticələri göstərir ki, folklor materialları məqsədyönlü şəkildə seçildikdə və müxtəlif dil fəaliyyətləri ilə əlaqələndirildikdə şagirdin lüğət ehtiyatının, oxuyub-anlama, şifahi və yazılı nitq bacarıqlarının inkişafına xidmət edə bilər. Bununla yanaşı, folklor şagirdin milli-mədəni dəyərləri anlamasına, öz mədəni kimliyi haqqında düşünməsinə və mədəni məzmunu müqayisəli şəkildə dərk etməsinə imkan yaradır.

Təklif olunan "Məzmun – Dil fəaliyyəti – Mədəni məna – Yaradıcı tətbiq" modeli folklorun təlim prosesində sistemli istifadəsinə imkan verir. Gələcək tədqiqatlarda bu model əsasında müxtəlif ibtidai siniflərdə eksperimental və nəzarət qrupları ilə empirik tədqiqatların aparılması, dil və mədəni kompetensiyanın ölçülməsi, müxtəlif folklor janrlarının müqayisəli təsirinin müəyyənləşdirilməsi məqsədəuyğun hesab edilir.

Ədəbiyyat

1. Abbasova, S. (2016). İbtidai siniflərin ana dili təlimində folklor nümunələri ilə bağlı işin təşkili metodikası. Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, 4(78), 164–166. https://azkurs.org/pars_docs/refs/8/7360/7360.pdf

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24493162

2. Abbasova, S. (2020). Ana dili təlimində folklor nümunələri ilə bağlı işin təşkili metodikasına dair. Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Humanitar elmlər seriyası, 4(105), 116–119. https://ndu.edu.az/wp-content/uploads/Elmi%20Eserler/105%20humanitar%202020.pdf
3. Abbasova, S. (2022). Azərbaycan dili təlimində təlim məqsədləri, nəticələri və şagird nailiyyətləri məsələsi. Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri. Humanitar elmlər seriyası, 1(114), 84–88. https://apijurnal.ndu.edu.az/static/archive-pdfs/72e68ce6-f560-4619-b5d5-0688aa5fff4f.pdf
4. Abbasova, S. (2025). İbtidai siniflərin Azərbaycan dili təlimində folklor irsinin öyrədilməsində pedaqoji texnologiyaların tətbiqi. İnnovasiya və davamlı inkişaf: yeni ideyalar və həllər: I Beynəlxalq elmi konfrans materialları, 402–403. https://doi.org/10.5281/zenodo.17688520
5. *Azərbaycan nağılları* (5 cilddə). (2005). Şərq-Qərb. https://www.preslib.az/az/bibliography/books/project/turklib/2005
6. Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi. (2025, 11 aprel). *Azərbaycan dili, ədəbiyyat, coğrafiya, fizika və informatika fənləri üzrə təhsil proqramlarının (kurikulumların) təsdiqi barədə* (Əmr № 3-29/3-2-186F/2025). https://baku.edu.gov.az/az/page/261/7752
7. Bruner, J. (1996). *The culture of education*. Harvard University Press.
8. Byram, M. (1997). *Teaching and assessing intercultural communicative competence*. Multilingual Matters.
9. Cəfərli, M., Babayev, R. (Tərt.). (2010). *Naxçıvan folkloru antologiyası* (Cild 1). Əcəmi. https://www.anl.az/el/Kitab/2015/Azf-256433.pdf
10. Fərzəliyev, T., Qasımlı, M. (Tərt.). (1994). *Azərbaycan folkloru antologiyası: Naxçıvan folkloru* (Cild 1). Sabah.
11. Gay, G. (2018). *Culturally responsive teaching: Theory, research, and practice* (3rd ed.). Teachers College Press.
12. Halliday, M. A. K. (1978). *Language as social semiotic: The social interpretation of language and meaning*. Edward Arnold.
13. İsmayılov, R., Nurullayeva, Ü., Zahidova, Ş., Bayramova, İ., Xanalıyeva, A., & Cəlilova, K. (2022). *Azərbaycan dili (tədris dili) fənni üzrə 3-cü sinif üçün metodik vəsait*. Azərbaycan Respublikasının Təhsil İnstitutu. https://www.trims.edu.az/noduploads/book/quot-azarbaycan-dili-quot-tadris-dili-fanni-uzra-3-cu-sinif-ucun-metodik-vasait-1662999386-810.pdf

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license

DOI: https://doi.org/10.5281/zenodo.24493162

14. Rüstəmzadə, İ., Fərhadov, Z. (Tərt.). (2012). *Qarabağ: Folklor da bir tarixdir* (Kitab 1). Elm və təhsil. https://folklor.az/uploads/library/files/Qarabag-folklor-da-tarixdir-11693911627.pdf
15. Tapmacalar. (2004). https://www.preslib.az/az/book/taauVwKjk2wCD16
16. UNESCO. (2003). *Convention for the safeguarding of the intangible cultural heritage*. https://ich.unesco.org/en/convention
17. Vıgotski, L. S. (1978). *Mind in society: The development of higher psychological processes*. Harvard University Press.

This open access article is distributed under a Creative Commons Attribution (CC-BY) 4.0 license